# GÖRKƏMLİ ŞƏSİYYƏTLƏRİN SÖYLƏDİKLƏRİ

Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Yeni vücuda gəlmiş Azərbaycan hökumətinin birinci rəisi-vüzərası olmaqla Azərbaycan tarixində mühüm mövqe tutmuş Fətəli xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta parçalarından əmələ gəlmiş bir gəmiyə bənzədir ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat, hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamışdı… Bu zəif gəmini bu fırtınalı gündə dağ-daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və gəmisini kamali-ehtiyat və ehtimal ilə sahili-nicata çıxarmaqda, fırtına sakit olana qədər dağa-daşa vurmayıb bunların arasından keçirməkdə böyük ustalıq və məharət göstərdi...

**Üzeyir bəy Hacıbəyli,**
**bəstəkar**

Fətəli xan Xoyski baş nazir olduğu ilk gündən Azərbaycan dövlətinin dünya ölkələri tərəfindən tanınması işinə var gücü ilə başlayıb. Azərbaycan Milli Şurası və Fətəli xan başda olmaqla milli hökumət öz fəaliyyətini daha geniş və hərtərəfli aparmaq üçün Gəncəyə köçüb. Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyini və bir dövlət kimi inkişafı uğrunda mübarizə aparmağı özünün əsas vəzifəsi olaraq bəyan edib. O, Gəncədə dövlət aparatının yaradılması, ayrı-ayrı nazirlik və idarələrin təşkili ilə məşğul olub. Nəticədə Fətəli xanın başçılıq etdiyi hökumət bir sıra tədbirlərə başlayıb. O, 1918-ci il iyunun 17-də Azərbaycan xalqına müraciət edib. Bu müraciətdə göstərilirdi ki, hökumətin ən yaxın və önəmli vəzifəsi bütün dövlət müəssisələrinin, məhkəmələrin və məktəblərin milliləşdirilməsidir. İyun ayının 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan edilib. İyunun 24-də Azərbaycan dövlət bayrağı haqqında qərar verilib, 27-də isə Azərbaycan dili dövlər dili elan edilib.

**Fazil Qaraoğlu,**
**professor**

Fətəli xan Xoyski həyatının son anına qədər vətəninə və xalqına sədaqətli olmuş, cümhuriyyət tariximizdə öz yeri, "dövlətçiliyimizin ilk müəllimi və rəhbəri" (M.B.Məhəmmədzadə) olan görkəmli ictimai-siyasi xadimdir. Onun milləti qarşısındakı misilsiz xidmətləri istiqlal mücadiləsi tariximizin yaddaşına əbədi həkk olunmuşdur.

**Asif Rüstəmli,**
**professor**

Xoyski parlamentdəki çıxışlarında Azərbaycanda milli-dini ayrı-seçkiliyin olmamasını yəni hələ o zaman xalqımızın multicultural dəyərlirin daşıyıcısı olduğunu dəfələrlə bəyan etmişdir. O deyirdi ki, Azərbaycandakı müsəlman türk milləti heç bir zaman bu Vətəndə özlərini tək övlad

kimi görməyiblər. Yəni Azərbaycan Cümhuriyyəti bütün millətlər, etnoslar üçün Vətəndir və onların bütün hüquqları və azadlıqları qorunur. Ona görə də, Azərbaycan monoetnik dövlət deyil, bütün etnoslar Milli İstiqlalı daima qorumalı və müdafiə etməlidirlər: «Hökumətin qabağında mühüm bir məsələ var isə də, o da istiqlaliyyət məsələsidir. Bizim birinci məsələmiz budur. Buna diqqət edəcəyiz. Sizlərdə buraya hər bir yerdən gəlmiş olduğunuz onu göstərir ki, bu istiqlaliyyət tək adamların dediyi olmayıb, bütün millətin xahişidir. Bir yerdə millətin xahişi olsa və o yerdə çalışsa, o millət azad olsa öz məqsədinə çatacaqdır».

**Emin Sərdarov,**
**Azərbaycan Respublikası**
**Dövlət Arxivinin direktoru**

Bir faktı unutmaq olmaz ki, F.Xoyskinin ölkəyə rəhbərlik etdiyi zaman, Azərbaycanda vəziyyət çox çətin idi. Həm daxili, həm xarici qüvvələr müstəqilliyimizin məhvinə var gücləri ilə çalışırdılar. Buna baxmayaraq, yeni hökumət ölkədə bir çox sahələr üzrə islahatlar apardı, mədəni quruculuq sahəsində mühüm tədbirlər həyata keçirməyə nail oldu. Amma çox təəssüflər ki, bunları görməyən, daha doğrusu görmək istəməyənlərdə var idi. Parlamentdəki bir sıra partiya və fraksiyalar, xüsusən "Hümmət", "İttihad", "Əhrar" və sosialistlər Xoyski hökumətini "fəaliyyətsizlikdə" günahlandıraraq, ölkənin bütün problemlərini onun üstünə yıxmağa çalışırdılar. Onlara kəskin cavab olaraq M.Ə.Rəsulzadə həm mətbu orqanlarda, həm də Parlamentin iclaslarında Xoyski hökumətini müdafiə edərək "...bu az müddətdə, nə mümkündürsə, etmişdir" deyərək, qəti şəkildə etirazını bildirmişdi.

**Qərənfil Dünyaminqızı,**
**Əməkdar jurnalist**

Xoyski müsəlmanlara qarşı tətbiq edilən ayrı-seçkiliyin aradan qaldırılması, köçürmə siyasətinin dayandırılmasıyla bərabər, milli və dini mənsubiyyətlərinə görə müsəlmanların Rusiyanın bir sıra şəhərlərində yaşamasına qadağa qoyulmasının yolverilməzliyi, onların yüksək dövlət orqanlarında işləməsinə icazə verilməməsi və s. kimi halları tənqid edən çıxışlar edirdi. Onun milli mövqedə dayanan ziyalıya çevrilməsinə səbəblərdən biri ruhundakı sərbəstlik, azadlıq duyğusu idisə, digər səbəb də məhz Rusiya imperiyası tərəfindən ayrı-seçkiliklərə məruz qalması idi...

**Boran Əziz,**
**tarixçi alim**

Milli-mənəvi zəmindən başlayaraq təhsil görmüş şəxsiyyətlərin milli tərəqqi, milli istiqlal uğrunda apardığı mübarizəyə töhfəsini vermiş Fətəli xan Xoyski klassik gimnaziya, sonradan isə Moskva Universitetində professional hüquq təhsili almışdır. Onun dünyagörüşünün formalaşmasına Gəncə mühiti, həmçinin peşəkar fəaliyyəti ilə bağlı rəsmi qurumların qeyri-rus, qeyri-xristian xalqlara ayrı-seçkilik münasibəti ciddi təsir göstərmişdir. Milli fikir mərkəzi Gəncədə maarifçiliyin, xeyriyyəçiliyin rolu nə qədər önəmli olmuşdursa, Yelizavetpol (Gəncə), Kutaisi (Suxumi, Yekaterinodar, Tiflis) məhkəmələrində qazandığı təcrübə də bir o qədər səmərəli oldu. Ədliyyə sisteminin fərqli səviyyələrində sırf peşəsi üzrə çalışmış Fətəli xan Xoyskinin siyasi, dövlətçilik bioqrafiyasında ikinci Dövlət Dumasının deputatı kimi fəaliyyəti xüsusi mərhələ təşkil edir.

**Firdovsiyyə Əhmədova,**
**tarix üzrə fəlsəfə doktoru**

Biz bu gün onun adını böyük iftixarla çəkirik, xidmətlərini minnətdarlıqla qeyd edirik, ruhunu böyük hörmət və məhəbbətlə anırıq. Fətəli xan Xoyski və silahdaşları xalqımızın qarşısında göstərdikləri şərəfli əməlləri ilə qəlbimizdə və tariximizdə əbədi yaşayacaqlar.

**Vəli İlyasov,**
**jurnalist**

XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndələrindən olan Fətəli xan Xoyski geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət kimi tarixdə iz salmışdır. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

**Nəzakət Ələddinqızı,**
**jurnalist**